# TARİXİN YADDAŞINDA QALAN ŞƏXSİYYƏT

## *Dövrün musiqi tarixinə Emin Sabitoğlunun fəlsəfi baxışı*

Azərbaycanın böyük bəstəkarı parlaq musiqi tərzi, üslubu və bəstəkarlığı ilə milli musiqi mədəniyyətində yeni yollar açmış Emin Sabitoğlunun yaradıcılıq və bəstəkarlıq üslubunun əsas xüsusiyyətlərini burada qeyd edə bilərik.

Emin Sabitoğlu Azərbaycan musiqi mədəniyyətinin parlaq simalarından biridir desək yanılmazdıq. Təkrarolunmaz gözəl tembrli və fəlsəfi düşüncəli, bəstələdiyi musiqi əsərləri ilə dövrünün tarixinə tarix qataraq, Türk dünyasında şöhrət qazanaraq Azərbaycan mədəniyyətini, musiqi tarixinin zənginliyini və bəstəkarlıq sənətini dünyaya tanıtmışdır.

Emin Sabitoğlu yaradıcılığına və onun gözəl bəstəkar olduğuna diqqət yetirəndə onun Azərbaycan musiqi sənətində yeni bir səhifə açmış olduğunu görürük. Onun yaradıcılığı Azərbaycan musiqisində bütöv bir mərhələni təşkil edir. Bənzərsiz bəstəkarlıq üslubu böyük sənətkarın yaradıcılığının şaxələri olmaqla həm də milli musiqi sənətində açdığı yolun başlanığıcıdır desəm yanılmazdım.

Bütün dünyada öz yaradıcılığı və bəstələdiyi musiqi əsərləri ilə dinləyicilərin ürəyini fəth etmiş Emin Sabitoğlu Azərbaycan musiqisini müxtəlif millətlərdən olan insanlara sevdirməyi bacarmışdır. Məhz onun möhtəşəm bəstəkarlıq istedadı sayəsində müasir Azərbaycan musiqi mədəniyyəti dünyanın bir çox ölkələrində geniş dinləyici auditoriyasının sərvətinə çevrilməsini də qeyd edə bilərəm. Eyni zamanda hər bir xalqın milli musiqisini dərindən qavramaq bacarığı sayəsində Emin Sabitoğlu dünya xalqlarının musiqi zövqlərinə yaxın əsərlər bəstələməklə tanındığını da desək yerinə düşərdi.

Bütün bunlar bəstəkarın sənətkarlığını dərindən və hərtərəfli səciyyələndirərək Emin Sabitoğlu yaradıcılığının gələcək nəsillər tərəfindən öyrənilməsi zəruriyyətini önə çəkir. Emin Sabitoğlu yaradıcılıq həyatı uzun və zəngin olmuşdur və onu mərhələlərə bölmək çətindir. Çünki Emin Sabitoğlunun musiqi tariximizə qədəm qoyması, bəstəkarlıq fəaliyyətində ilk atdığı fəlsəfi addımlar parlaq və yaddaqalan olmuşdur. Bəstəkar Emin Sabitoğlunun milli musiqimizə, milli dəyərlərimizə bunun kimi də mədəniyyətimizə yanaşma tərzi və fəaliyyəti onun insani keyfiyyətlərindən və musiqi biliyindən irəli gəlir. Məhz bu səbəbdən onun sənətkarlıq ənənələri müasir dövrümüzdə də yaşamaqdadır.

Emin Sabitoğlunun bir bəstəkar kimi formalaşması, yetkinləşməsi və kamilləşməsi prosesini izləmək üşün onun yaradıcılıq yollarına nəzər salmağı məqsədəuyğun hesab edirik.

Türkdilli xalqların, Dünya musiqisinin görkəmli nümayəndəsi Emin Sabitoğlunun Azərbaycanın zəngin musiqi mədəniyyətinin rəmzi, xalqmızın ümumbəşəri ideyalara sadiqliyinin aynası olduğunu qeyd edə bilərik. Emin Sabitoğlu böyük hümanist bəstəkar və şair kimi hər zaman insan ləyaqətini, onların duyğularını, düşüncələrini, musiqi mədəniyyətini və musiqiyə olan sevgilərini tərənnüm edib. Bunları dahi sənətkarın, qələm sahibinin, mütəfəkkir düşüncəyə sahib olan bəstəkarın qələmə aldığı əsərlərdə və siyasi-fəlsəfi görüşlərində də görmək olar. Şair və mütəfəkkir, qələm sahibi və bəstəkar Emin Sabitoğlunun xalqımızın mədəni sərvətlərinə çevrilən əsərləri haqqında da geniş fikir söyləmək olar.

Emin Sabitoğlu elmin, incəsənətin, mədəniyyətin bunun kimi də musiqinin bütün sahələrinə sözün qüdrəti və bəstələdiyi müsiqilərin varlığı ilə münasibətini bildirmişdir. Bununla yanaşı, Emin Sabitoğlu yaradıcılığından və bəstələdiyi sözlərin və şeirlərin musiqisinin varlığından keçən dövrün tarixini, onun fəlsəfi baxışını və ideya baxımından hər dəfə məntiqini hiss edirsən. Burada tərənnüm olunan musiqi duyumunun içərisində insan və onun əxlaqını, dəyər və keyfiyyətini, düşüncə və qavrama formalarını görməklə bərabər, həm də müəllifin varlığını düşünməyə vadar olursan. Burada onu da qeyd edə bilərəm ki, bu məsələ həm də şair-bəstəkarı ömrü boyu düşündürmüş və əsərlərinin əsas qayəsinə çevrilmişdir.

Emin Sabitoğlu bəstəkarlığı ilə musiqilərə rəng verərək təmiz adı və dəyanəti hər şeydən üstün tutaraq fərqli insan düşüncələrini bir araya gətirir.

Musiqinin varlığını və onun fəlsəfəsini hər könüldə dilə gətirən Emin Sabitoğlu insanı musiqidən həzz almağa və musiqinin melodiyasındakı hikməti və onun mənanı duymağa səsləyir.

Emin Sabitoğlu varlığını musiqi dünyasında bir araya gətirib diqqət yetirdiyi şeirlərin içərisində öz fəlsəfi dünyasını görməklə hər kəsin qəlbindən süzülən misraların, beytlərin və bəndlərin içərisində insan varlığını, mədəniyyətin, insani keyfiyyətlərin və milli mənəvi dəyərlərimizin ən uca zirvəsini görməyə çalışır.



Bəstələdiyi şeirlərin hər birini dünyasının varlığına bənzədib ona ən yüksək qiymət verməklə gələcək zamanın üzünə açılan qapısına bərabər tutur.

Bəstəkar Emin Sabitoğlunun fikrincə hər bir işdə ağılla hərəkət etmək, ədaləti və haqqı hər şeydən üstün tutmaq yalnız insana şərəf gətirə bilər fikirlərini də sadalasaq yanılmazdıq.

Görkəmli şəxsiyyət, Azərbaycan Respublikasının Prezidenti Ulu öndər Heydər Əliyevin 12 dekabr 1997-ci il fərmanı ilə Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmiş, 600-dən artıq mahnının, onlarla teatr tamaşasının və 40-dan artıq kinofilmin musiqi müəllifi, 1978-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş, xalq artisti, müəllim, pedaqoq, professor, dövlət mükafatı laureatı Emin Sabitoğlunun əsərləri ilə yanaşı, həm də onun dünya kitabxanalarında mühafizə olunan və qorunub saxlanılan dünya şöhrətli əsərləri hər kəsin qəlbinə yol tapa bilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: - "Emin Sabitoğlu rəngarəng yaradıcılıq palitrasına malik sənətkar kimi milli-mədəni ənənələr zəminində yüksələn və müasir musiqinin nailiyyətlərindən uğurla bəhrələnərək Azərbaycanın mədəniyyət salnaməsini zənginləşdirən şəxsiyyətlərdəndir".

Emin Sabitoğlunun həyat və yaradıcılıq səhifələrini vərəqləyərkən onun, rejissor Tofiq Kazımovun quruluş verdiyi səkkiz tamaşaya musiqi yazdığı, İlyas Əfəndiyevin "Unuda bilmirəm" və "Məhv olmuş gündəliklər", Bəxtiyar Vahabzadənin "Yağışdan sonra", Anarın "Şəhərin yay günləri", Nəbi Xəzrinin "Ana Kür", "Dərələr", "Ağ çiçək", "Sənin üçün", Ramiz Heydərin sözlərinə yazdığı "Mən Lenini görürəm", Xəyyam Mirzazədə ilə birlikdə Zeynal Cabbarzadənin sözlərinə yazılmış "Çiçəklənən vətənim" kantatasına yazdığı üç hissəli Allegro, Modetato və Maestosodan, "Çay", atası Sabit Rəhmanın Milli Dram Teatrı üçün yazılmış "Küləklər" pyesi və "Hicran" operettası, "Yalan", Azərbaycan kino salnaməsinə daxil olmuş "Gün keçdi", "Ad günü", "Dədə Qorqud", Tamara Vəliyevanın "Bankir adaxlı" və bir sıra filmlərə yazılan musiqiləri artıq bəstəkarın formalaşmış üslubundan xəbər verdiyini desək yanılmazdıq.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran xanım Mahmudovanın dedikləri kimi "Hər bir sənətkarın həyat yoluna nəzər salarkən istər-istəməz onun soykökü, nəsli, ilk növbədə diqqət mərkəzində durur. Emin Sabit oğlu Mahmudov 1937-ci ildə, yağışlı payız ayı-noyabrın 2-də Bakı şəhərində yazıçı-dramaturq Sabit Rəhmanın (Sabit Kərim oğlu Mahmudovun) ailəsində dünyaya gəlmişdir. Ceyran xanımın qeyd etdiyi kimi, 1944-cü ildə Emin Sabitoğlunun musiqiyə böyük həvəsi olduğunu görən, həm də övladını musiqiçi kimi yetişdirmək istəyən atası Sabit Rəhmanın köməyi və dəstəyi ilə onu konservatoriyanın nəzdindəki onillik orta musiqi məktəbinə (indiki Bülbül adına orta ixtisas musiqi məktəbinə) qoyur. Professor Kövkəb Səfərəliyevanın sinfində oxuyan Emin Sabitoğlu tezliklə onun sevimli tələbələrindən birinə çevrilir. 8-ci sinifdə oxuyan Emin Sabitoğlunun təhsil aldığı məktəbin nəzdində Mithəd Əhmədovun bəstəkarlıq sinfində ilk yaradıcılıq təcrübələrinə imza atır. O, fortopiano üçün pyeslər və bir neçə kiçik həcmli əsərlər yazır. 1954-cü ildə indiki Bülbül adına orta ixtisas musiqi məktəbini bitirən Emin Sabitoğlu Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakultəsinə, Qara Qarayevin sinfinə daxil olur. İki il burada oxuduqdan sonra təhsilini P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında davam etdirir. Burada da görkəmli rus-sovet bəstəkarı, Stalin mükafatı laureatı Yuriy Şaporinin sinfində təhsil alır. 1962-ci ildə Şaporinin 75 illik yubleyi ilə bağlı olan tələbələrinə Sovet İttifaqının ən nüfuzlu musiqi jurnalı olan "Sovetskaya muzıka"nın səhifələrində müəllimləri haqqında yazılar dərc etmək təklifi olunur. Həmin vaxtı Emin Sabitoğlu da bu təşəbbüsə həvəslə qoşulur, oxuduğu illər, müəllimi haqqında xatirələr yazır. Moskvada oxuduğu illər Emin Sabitoğlunun bir bəstəkar və şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. 1959-cu ildə Emin Sabitoğlu çox sevdiyi şairlərdən biri-Nazim Hikmətin sözlərinə bir neçə romans bəstələyir.

1965-ci ildə Emin Sabitoğlunun "Dəniz" filminə bəstələdiyi musiqi lentə alınır. Tələbəlik illərini arxada qoyan Emin Sabitoğlu Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında musiqi redaktoru çalışmaqla kino musiqisi ilə yaxından tanış olub o illərdə sənədli filmlərə musiqi yazır. Onların sırasında "Dağlarda zavod", "Kür", "Azərbaycan teatrının ustaları", "Dəniz", "Azərbaycan çayı" və başqalarını qeyd etmək olar. 1965-ci ildə atası Sabit Rəhmanın Azərbaycan Dövlət Akademik Dram Teatrında qoyulan "Yalan" tamaşasına musiqi yazır. 1967-68-ci illərdə Emin Sabitoğlu Müslüm Maqomayev adına Azərbaycan Dövlət Flarmoniyasında bədii rəhbər kimi çalışır. Gənc bəstəkar Emin Sabitoğlu bəstəkar kimi tanınaraq sözləri Nəbi Xəzriyə aid olan "Dərələr", "Ağ çiçək", və "Sənin üçün" mahnılarına görə 1968-ci ildə Lenin komsomolu laureatı fəxri adına layiq görülür.

*(Davamı 14-cü səhifədə)*



*(Əvvəli 13-cü səhifədə)*

Sənətə yeni qədəm qoyan bəstəkar üçün bu böyük uğur olaraq Emin Sabitoğlunun yaradıcılığının əsas istiqamətləri müəyyən edilib xalq arasında bəstəkar nüfuzlu bir şəxsiyyət kimi tanınır.

Azərbaycanın musiqi həyatında iştirak edən gənc bəstəkar 1971-ci ilin may ayının 26-dan iyunun 3-dək Qazan və Ulyanovsk şəhərlərində keçirilən Azərbaycan mədəniyyət həftəsinin proqramı Azərbaycan Dövlət Xor Kapellası tərəfindən ifa olunan Emin Sabitoğlunun Ramiz Heydərin sözlərinə yazdığı "Mən Lenini görürəm" kantatası ilə açılmışdır. Tanınmış Şəxsiyyət, dünya şöhrətli bəstəkar Emin Sabitoğlunun həyat və yaradıcılıq səhifələrini vərəqləyərkən bəstəkar-pedaqoqun Türkiyədə yaşadığı illər haqqında da söhbət açmaq olar. Bəstəkarın və pedaqoqun 1994-2000-ci illərdə İstanbul Texniki Universitetinin Türk Xalq Musiqisi Konservatoriyasında dərs dediyini də qeyd edə bilərən.

Dünya şöhrətli bəstəkar, musiqiçi pedaqoq həyatındakı fəaliyyətə, yaratdığı sənət əsərlərinə, yaradıcılığına, əldə etdiyi fədakarlığa, qazandığı nailiyyətlərə görə 1997-ci ilin dekabrında 60 illik yubleyi keçirildiyi bir vaxtda Ümummilli lider, mərhum prezident Heydər Əliyev Cənablarının fərmanı ilə Emin Sabitoğlu

# TARİXİN YADDAŞINDA QALAN ŞƏXSİYYƏT

"Şöhrət" ordeni ilə təltif olunmuşdur və 2000-ci ilin oktyabrında yenə də Ümummilli lider, mərhum prezident Heydər Əliyev Cənablarının fərmanı ilə Emin Sabitoğlu "Azərbaycanın Xalq artisti" fəxri adına layiq görülmüşdür.

Tanınmış müsiqiçi alim, dünya şöhrətli bəstəkar, 600-dən artıq mahnının müəllifi, onlarla teatr tamaşası və 40-dan artıq kinofilmin musiqi müəllifi, xalq artisti, professor, Dövlət mükafat laureatı Emin Sabitoğlu 2000-ci ilin oktyabrın 18-də Bakıya atası Sabit Rəhmanın 90 illik yubiley tədbirində iştirak etmək üçün gəlmiş, elə ata evindəcə gözlərini həmişəlik bu dünyaya yummuşdur. Bu elmi məqalədə görkəmli şəxsiyyət, 600-dən artıq mahnının müəllifi, onlarla teatr tamaşası və 40-dan artıq kinofilmin musiqi müəllifi, xalq artisti, professor, Dövlət mükafat laureatı Emin Sabitoğlunun əsərləri ilə yanaşı, həyat və yaradıcılığı haqqında zəngin materiallar toplanmış,. eləcə də dünya kitabxanalarında mühafizə olunan əsərləri öz əksini tapmışdır.

Emin Sabitoğlunun "Mən Lenini görürəm" kantatası, M.Quliyevin "Azərbaycan" simfoniyası ilə yanaşı violonçel və orkestr üçün konserti, L.Vaynşteynin ikinci simfoniyası, O. Felzerin "Dialoqlar" simfoniyası, A.Əlizadənin "Bayatılar" xor silsiləsi və digər əsərlərin səsləndiyini qeyd edə bilərik.

Emin Sabitoğlunun fəlsəfi düşüncəsini və dünyagörüşünü, yaratdığı sənət əsərlərini dünyamız ilə müqayisədə onu çınqıya, dünyanı isə nəhəng dağa və gur yanan bir ocağa bənzətsəm yanılmazdım. Çünki yalnız ağıl və igidlik, mədəniyyət və milli mənəvi dəyər, ağıl və kamal, iradə və insanpərvərlik birləşən yerdə ədalət qələbə çala bilər.

***SAHİB VƏLİYEV,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***